**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Tədris məsələləri üzrə prorektor v.i.e:

_______dos. Zaur Məmmədov
"12" 09 2025-ci il

## Fənn sillabusu

**İxtisas:** 050810-"Turizm işinin təşkili" A,B
**Fakültə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** "Makroiqtisadiyyat"(Kafedranın 12.09.2024-cü il 01 saylı protokolu ilə təsdiq edilmişdir.)
**Kodu:** İPF-B08
**Tədris ili:** II (2025-2026). Semestr: III
**Tədris yükü cəmi:** 150 saat - Auditoriya yükü 45 saat (30 saat mühazirə, 15 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 5 kredit
**II. Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmidərəcəsi:** *baş müəllim Şahbazova Lalə Əbdülrəhim qızı*
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170-a
**Məsləhət saatı:** III və IV günlər: saat $14^{00}$-$16^{00}$
**E-mail ünvanı:** lale.shahbazovaa@*gmail.com*
**III. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**
**Əsas**
- N.Q.Menkyu. "Ekonomiksin prinsipləri" .Dərslik. Bakı, 2009
- O.Blanşard. "Makroiqtisadiyyat". Dərslik. Bakı, 2019
- Rudiqer Dorrnbuş, Stenli Fişer, Riçard Stars. Makroiqtisadiyyat. On birinci nəşr. İngilis dilindən tərcümə, AMB, 2017
- Paul Crugman & Robin Wells "Makro Ekonomi" Palme yayınları. 2015
- "İqtisadi nəzəriyyə: Makroiqtisadiyyat 1,2". Q.V.Plexanov adına Rusiya İqtisad Akademiyası. Dərslik. Bakı, 2009

**Əlavə**
- Atakişiyev M.C., Abbasov H.M., Abbasova H.N., Mikro və makroiqtisadiyyat. Bakı, Azərnəşr, 2010
- M.X.Meybullayev ."Makroiqtisadiyyata giriş". Dərslik, Bakı, 2011
- A.V.Sidoroviç və b. "İqtisadi nəzəriyyə kursu". Dərslik. M.V.Lomonosov adına Moskva Dövlət Universiteti. Dərslik. Bakı, 2012

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün ilkin olaraq "Mikroiqtisadiyyat" fənlərinin tədrisi zəruridir.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda "Statistika" fənninin tədris olunması zərurəridir.

**VI. Fənnin təsviri və məqsədi:** Bu kursda sadə seçim ideyasından başlayaraq, alternativ dəyər, ticarətin faydaları, bazarların işləmə mexanizminə qədər iqtisadi nəzəriyyənin bir çox mövzuları üzrə təməl biliklər verilməsi nəzərdə tutulmuşdur. Fənn mikroiqtisadiyyatın əsas prinsiplərini əhatə etməklə, iqtisadın elminin mahiyyəti, iqtisadçı kimi düşünmə tərzi, ticarət və onun faydaları, bazarların işləmə mexa-nizmi, dövlət bölməsi iqtisadiyyatının əsas məsələləri, vergi sisteminin əsasları, istehsal xərcləri, bazarın tipləri, istehsal amilləri bazarları, gəlirlər və onların bölgüsü kimi mövzuları özündə birləşdirir. Fənnin məqsədi tələbələrdə iqtisadi nəzəriyyənin təməl biliklərini formalaşdırmaqdır.

**VII. Davamiyyətə qoyulan tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbənin biliyi 100 ballı sistemlə qiymətləndirilir: 50 bal semestr dövründə (o cümlədən 20 bal seminar, məşğələ dərslərində fəaliyyətinə görə, 30 bal kollekviumların nəticələrinə görə verilir), 50 bal isə imtahanda (hər bir bilet 5 sualdan ibarət olmaqla **10 balla** qiymətləndirilir) toplayır. Seminar ərzində minimum 2 dəfə kollokvium keçiriləcəkdir. Tələbə kollokviumda iştirak etmədikdə jurnalda **0 (sıfır) bal** qeyd olunur.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

Qiymətləndirmə meyarları aşağıdakılardan ibarətdir:

- 10 bal - tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal - tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal - tələbənin cavabı əsasən düzgündür.
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.*

**X. Təqvim planı:** *Mühazirə 30 saat,*

| N | Keçirilən mühazirə mövzularının məzmunu | Mühazirə | |
|---|---|---|---|
| | | Saat | Tarix |
| 1 | 2 | 5 | 6 |
| 1. | **Mövzu 1. Makroiqtisadiyyata giriş**<br>***Plan:***<br>1. Makroiqtisadiyyatın tədqiqat obyekti<br>2. Makroiqtisadiyyatın vezifəsi, məqsədi və sektorları<br>3. Makroiqtisadiyyatın metodologiyası | 2 | |
| 2. | **Mövzu 2. İqtisadi fəaliyyətin nəticələrinin ölçülməsi. Milli hesablar sistemi və onun əsas göstəriciləri**<br>***Plan:***<br>1. Milli hesablar sistemi və onun strukturu<br>2. Milli hesablar sisteminin əsas göstəriciləri<br>3. Ümumi daxili məhsulun (ÜDM) hesablanması | 2 | |
| 3. | **Mövzu 3. Milli hesablar sistemi ilə bağlı əlavə anlayışlar**<br>***Plan:***<br>1. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi<br>2. Real və nominal ÜDM<br>3. İqtisadi artım və iqtisadi inkişaf<br>4. İqtisadi artımın əsas göstəriciləri | 2 | |
| 4. | **Mövzu 4. Makroiqtisadi qeyri-sabitlik və inflyasiya**<br>***Plan:***<br>1. İnflyasiya və onun növləri<br>2. İnflyasiyanın şərtləri və səbəbləri<br>3. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru<br>4. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti | 2 | |
| 5. | **Mövzu 5. Makroiqtisadi qeyri-sabitlik və işsizlik**<br>***Plan:***<br>1. Məşğulluq anlayışı və növləri<br>2. İşsizliyin növləri və səbəbləri<br>3. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi<br>4. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə<br>5. İşsizlik və inflyasiya arasındakı əlaqə. Filips əyrisi<br>6. İşsizliyin sosial-iqtisadi nəticələri. Məşğulluq siyasəti | 2 | |
| 6. | **Mövzu 6. Məşğulluq və milli gəlir arasındakı əlaqə. Klassik və keynsçi tarazlıq nəzəriyyəsi**<br>***Plan:***<br>1. Klassik iqtisadi yanaşma: faiz dərəcəsi, əmək haqqı və qiymət arasındakı əlaqə<br>2. Keynsçi iqtisadi yanaşmalar | 2 | |

| | | | |
|---|---|---|---|
| 7. | **Mövzu 7. İstehlak, yığım və investisiyalar**<br>***Plan:***<br>1. İstehlak funksiyası, istehlaka son hədd və orta meyliyi<br>2. Yığım funksiyası, yığıma son hədd və orta meyliyi<br>3. İnvestisiyalar, onların növləri, investisiya funksiyaları funksiyaları<br>4. İnvestisiya proseslərinin akselerator və multiplikator modelləri | 2 | |
| 8. | **Məcmu tələb və məcmu təklif**<br>***Plan:***<br>1. Məcmu tələb əyrisi (AD), məcmu tələb əyrisinin sürüşməsi və meyilliyinin dəyişməsi<br>2. Məcmu təklif əyrisi (AS), məcmu təklif əyrisinin sürüşməsi və meyilliyinin dəyişməsi<br>3. Qısa və uzunmüddətli dövrdə məcmu təklif və onun əsas amilləri<br>4. Ümumi makroiqtisadi tarazlıq. Klassik və keynsçi yanaşma | 2 | |
| 9. | **Mövzu 9. Dövlətın iqtisadi fəaliyyəti, dövlət büdcəsi və fiskal sıyasət**<br>***Plan:***<br>1. Dövlət büdcəsi və onun strukturu, dövlət xərcləri və gəlirləri, xərclərin təsnifatı.<br>2. Büdcə kəsiri və onun maliyyələşmə üsulları.<br>3. Dövlət borcları, növləri, nəticələri və onun büdcə kəsirilə əlaqəsi.<br>4. Vergilər və onların növləri, iqtisadi mahiyyəti, təsnifatı. Dövlət xərclərinin və vergilərin milli gəlirə təsiri. | 2 | |
| 10. | **Mövzu 10. Açıq iqtisadiyyat. Xarici iqtisadi əlaqələr və milli gəlir**<br>***Plan:***<br>1. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları<br>2. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri<br>3. Tədiyə balansı və onun quruluşu<br>4. Xarici ticarət və milli gəlir arasındakı əlaqə<br>5. Valyuta bazarı və valyuta məzənnəsi<br>6. Valyuta siyasəti və valyuta rejimi | 2 | |
| 11 | **Mövzu 11. Pul və pul təklifi**<br>***Plan:***<br>1. Pulun mahiyyəti, funksiyaları, növləri, pul sistemləri<br>2. Pul aqreqatları və onların növləri<br>3. Pul multiplikatoru<br>Pul təklifi ilə bağlı yanaşmalar | 2 | |
| 12 | **Mövzu 12. Pul tələbi və pulun miqdar nəzəriyyəsi**<br>***Plan:*** | 2 | |

| | | | |
|---|---|---|---|
| | 1. Pul tələbi və ona təsir edən amillər<br>2. Likvidlik seçimi nəzəriyyəsi<br>3. Likvidlik tələsi<br>4.Pulun miqdar nəzəriyyəsi. Fişer və Kembric tənliyi | | |
| 13. | **Mövzu 13. Milli gəlirin real və monetar tarazlığı: IS-LM modeli**<br>***Plan:***<br>1. Əmtəə bazarında tarazlıq və IS modeli-əyrisi<br>2. Pul bazarında tarazlıq və LM modeli-əyrisi<br>3. Pula tələb və təklif əyriləri<br>4. Əmtəə və pul bazarlarında tarazlıq, İS-LM modeli | 2 | |
| 14. | **Mövzu 14. Dövlətin pul-kredit (monetar) siyasəti**<br>***Plan:***<br>1. Müasir bank sistemi: Mərkəzi Bank və kommersiya bankları<br>2. Mərkəzi Bankın pul-kredit (monetar) siyasəti, onun məqsədləri və alətləri | 2 | |
| 15. | **Mövzu 15. Makroiqtisadi qeyri-sabitlik və iqtisadi tsikllər**<br>***Plan:***<br>1. İqtisadi inkişafın qeyri-sabitliyinin səbəbləri, iqtisadi tsikl və onun fazaları<br>2. İqtisadi tsiklik göstəriciləri<br>3. İqtisadi tsiklin növləri | 2 | |
| | **Cəmi:** | **30** | |

**XI. Fənn üzrə tələblər:** Tələbə müxtəlif iqtisadi anlayışlar, terminlər və proseslər barədə olan fikirləri bilməli, onların əsas normativ bazası barədə məlumatlı olmalıdır. Tələbə iqtisadi məktəblərin və onların nümayəndələrinin elmi və ideoloji yanaşmalarını təhlil etməyi bacarmalıdır.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- iqtisadın elminin mahiyyəti öyrənir;
- iqtisadçı kimi düşünmə tərzi formalaşır;
- ticarət və onun faydalarını öyrənir;
- bazarların işləmə mexanizmi öyrənir;
- istehsal xərclərini öyrənir;
- bazarın tiplərini öyrənir;
- istehsal amilləri bazarlarını öyrənir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollekvium sualları:**

**I Kollekvium sualları:**

1. Makroiqtisadiyyatın tədqiqat obyekti və metodologiyası
2. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması

3. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması
4. İqtisadi artım və iqtisadi inkişaf
5. İnflyasiya və onun növləri
6. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru
7. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti
8. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi
9. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə
10. İşsizlik və inflyasiya arasındakı əlaqə. Filips əyrisi

**II Kollekvium sualları:**

1. Klassik iqtisadi yanaşma: faiz dərəcəsi, əmək haqqı və qiymət arasındakı əlaqə
2. Keynsçi iqtisadi yanaşmalar
3. İstehlak və istehlak funksiyası
4. Yığım və yığım funksiyası
5. İnvestisiyalar, onların növləri və funksiyaları
6. Dövlət büdcəsi və onun quruluşu
7. Büdcə kəsiri, səbəbləri və aradan qaldırılma üsulları
8. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları
9. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri
10. Valyuta siyasəti və valyuta rejimi

**XV. İmtahan sualları: (Nəzəri suallar)**

1. Makroiqtisadiyyatın tədqiqat obyekti
2. Makroiqtisadiyyatın metodologiyası
3. Ümumi Daxili Məhsul (ÜDM) və Ümumi Milli Məhsulun (ÜMM) hesablanması
4. İctimai məhsulun ölçülməsi üçün istifadə edilən digər makroiqtisadi göstəricilər və onların hesablanması
5. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi
6. Real və nominal ÜDM
7. İqtisadi artım və iqtisadi inkişaf
8. İnflyasiya və onun növləri
9. İnflyasiyanın şərtləri və səbəbləri
10. İnflyasiyanın ölçülməsi. Əsas qiymət indeksləri və ÜDM deflyatoru
11. İnflyasiyanın sosial-iqtisadi nəticələri. Antiinflyasiya siyasəti
12. İşsizliyin növləri və səbəbləri
13. İşsizliyin göstəriciləri. Təbii işsizlik səviyyəsi
14. Ouken qanunu. ÜDM və işsizlik arasındakı əlaqə
15. İşsizlik və inflyasiya arasındakı əlaqə. Filips əyrisi
16. İşsizliyin sosial-iqtisadi nəticələri. Məşğulluq siyasəti
17. Klassik iqtisadi yanaşma: faiz dərəcəsi, əmək haqqı və qiymət arasındakı əlaqə
18. Keynsçi iqtisadi yanaşmalar
19. İstehlak və istehlak funksiyası
20. Yığım və yığım funksiyası
21. İnvestisiyalar, onların növləri və funksiyaları
22. Dövlət büdcəsi və onun quruluşu

23. Fiskal siyasətin məqsədləri və əsas alətləri
24. Büdcə kəsiri, səbəbləri və aradan qaldırılma üsulları
25. Dövlət borcu və onun idarə olunması
26. Multiplikator və akselerator mexanizmi
27. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlılığının meyarları
28. İstehsal amillərinin beynəlxalq hərəkətinin makroiqtisadi təsirləri
29. Tədiyə balansı və onun quruluşu
30. Xarici ticarət və milli gəlir arasındakı əlaqə
31. Valyuta siyasəti və valyuta rejimi
32. Pul aqreqatları və likvidlik
33. Pul multiplikatoru
34. Pul tələbi və ona təsir edən amillər
35. Pulun miqdar nəzəriyyəsi. Fişer və Kembric tənliyi
36. Müasir bank sistemi: Mərkəzi Bank və kommersiya bankları
37. Mərkəzi Bankın pul-kredit (monetar) siyasəti, onun məqsədləri və alətləri
38. Əmtəə bazarında tarazlıq və IS əyrisi
39. Toplam tələb əyrisinin sürüşməsi və meylliliyinin dəyişməsi
40. Ümumi makroiqtisadi tarazlıq

Hər bir bilet 5 sualdan ibarətdir. Bilet üzrə 4 (dörd) nəzəri və 1 (bir) praktik (tədris olunan mövzulara aid) sual nəzərdə tutulur.

"Makroiqtisadiyyat" fənninin sillabusu 050810-"Turizm işinin təşkili" ixtisası üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus "İqtisadiyyat və innovativ idarəetmə" kafedrasında müzakirə edilərək, təsdiq olunmuşdur ( 12 sentyabr 2025-ci il, protokol №1).

Kafedra müdiri v.i.e: dos. G.T.Əliyeva

Fənn müəllimi: b/m. L.Ə.Şahbazova